# Nəcməddin MÜRVƏTOV



***Mürvətov Nəcməddin Taci oğlu 5 dekabr 1953–cü ildə Dəvəçi rayonunun Yuxarı Ələz kəndində anadan olmuşdur. 1960-cı ildə Dəvəçi rayonu Yuxarı Ələz kənd ibtidai məktəbinin I sinfinə qəbul olunmuş, 1961-ci ildə ailəsinin Siyəzən şəhərinə köçməsi ilə əlaqədar, təhsilinin Siyəzən şəhər C.Cabbarlı adına 1 saylı orta məktəbində davam etdirmişdir. 1970-ci ildə orta məktəbi bitirərək indiki ADPU-nun (keçmiş V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun) riyaziyyat fakültəsinə daxil olmuşdur. Ali məktəbdə oxuduğu illərdə qrup komsomol təşkilatının katibi, fakültə həmkarlar təşkilatının büro üzvi kimi ictimai vəzifələr daşımışdır. 1974–cü ildə institutu riyaziyyat müəllimi ixtisası üzrə bitirdikdən sonra Dəvəçi rayonunun Böyük Həmyə kənd 8 illik məktəbinə ixtisası üzrə müəllim vəzifəsinə təyin edilmişdir. 1977–ci ildə Böyük Həmyə kənd 8 illik məktəbinə direktor vəzifəsinə, 1978-ci ildə isə Böyük Həmyə kənd orta məktəbinə direktor vəzifəsinə təyin edilmişdir. 2008-ci ildən etibarən Siyəzən şəhər C.Cabbarlı adına 1 saylı orta məktəbində direktor vəzifəsində çalışır. Siyəzən rayon Ağsaqqallar Şurasının sədr müavinidir, rayonun ictimai həyatında fəal iştirak edir. Ədəbi fəaliyyəti ölkənin tanınmış elm və ədəbiyyat xadimləri tərəfindən yüksək qiymətləndirmiş, respublikanın müxtəlif qəzet və jurnallarında, internet resurslarında barəsində məqalələr yazılmışdır. N.Mürvətovun adı "Azərbaycan yazıçıları XX-XXI yüzillikdə" ensiklopedik məlumat kitabında daxil edilmişdir.***

***1985-ci ildə Respublikanın "Xalq maarifi əlaçısı" adını almışdır. 2003-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.***

***2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.***

***2014-cü ildə "Qızıl Qələm" media mükafatı, 2015-ci ildə Həsən bəy Zərdabi adına ali media mükafatına layiq görülmüşdür.***

***2015-ci ildən Azərbaycanın Əməkdar müəllimidir.***

***2018-ci ildə Prezident təqaüdünə layiq görülmüş, barəsində şair və yazıçı Əli Rza Xələfli tərəfindən "Dağdan dənizə doğru" adlı kitab yazılmışdır.***

***"Cabir Novruz" Mədəniyyət Fondunun vitse-prezidentidir.***

***İlk mətbu əsərləri "Ehtiyac", "Şuşa" şeirləri rayon "Çıraq" qəzetində 1993-cü ildə çap olunmuşdur.***

### Ay ana

Yaşamımın dad, ləzzəti heç demə,
Sənsənmiş tək, təkcə inan, ay ana.
Qəfil köçlə ağrı-acı qəlbimə
Qoydun, köksə od, köz yanan, ay ana.

Bədrəng oldu boz-bulanıq həyatım,
Yana düşdü sınmış qolum-qanadım.
Sənlə bağlı saysız arzum, muradım,
Gülə döndü vaxtsız solan, ay ana.

Harayıma ən birinci çatardın,
Bikef görcək qəm-qüssyə batardın.
Kim nə deyib?-Bir-birinə qatardın,
Çox olardı sözü danan, ay ana.

Tənhalığı niyə qıydın balana,
Sənsizlikdən ağlar, mələr qalana.
İnanıram uydurduğum yalana,
Yuxudasan oyan, oyan, ay ana.

Düşünməzdim, yaşayaram bu halı,
Səksəkəli, baş havalı əhvalı.
İndi yazıq görkəmdəyəm zavallı,
Söylə mənə "bala can, can", ay ana.

### Get

Deyilsən qəlbimdə əksi olan kəs,
Bax, necə gəlmişdin, eləcə çıx get.
Gəl vaxt itirməyək mənasız, əbəs,
Qurduğun ümidlə "nələr"i yıx, get.

Zorla alınmır ki, sevgi, məhəbbət,
Cismim od almadı baxışlarından.
Bunu sən də duydun, anladın, əlbət,
Barəndə buz, soyuq "alqışlarım"dan.

Bu da bəxtimizin tale qisməti,
Görüşdük, danışdıq, ayrılaq gərək.
Çəkməmiş ətrafdan nəzər-diqqəti,
Çaşmamış, azmamış tez qərar verək.

Oyun oynamağın de mənası nə,
Onsuz haçalanır bu yolun sonu.
Belədə "qazanc" tək kinayə, tənə,
Bir də sözümüzün "soluxmuş donu".

Deyilsən qəlbimdə əksi olan kəs,
Bax, necə gəlmişdin, eləcə çıx get.
Gəl vaxt itirməyək mənasız, əbəs,
Qurduğun ümidlə "nələr"i yıx, get.

### Özümdən "qeybətim"

Tək tənha qalmağı xoşlayıram çox,
Belə də olmur heç zərrə xiffətim.
Başqa bir kimsəylə yox ki, işim, yox,
Özümdən özümə olur "qeybətim".

Deyirəm bax "bunu" demişəm nahaq,
Neçəsi inciyər yəqin bu sözdən.
Filankəs eyləyib əlində bayraq,
Sanmaq istəyəcək fikrimi gözdən.

Bax, burda vermişəm tələsik qərar,
Kimdi "tez ol" deyib bitir bu işi.
Axı , vardı daha ağıllı yollar,
Mümkünsüz qaytarmaq ötən keçmişi.

Bəzən əsəbindən içimdəki mən,
Lağıyla üzümə "səfehsən" deyib.
Söyləyib: " Özünsən özünə düşmən,
Halalca haqqını gör kimlər yeyib".

"Nağıllar demişəm" hədər, havayı,
Məqsədim qandırmaq olub nadanı.
Yoxmuş ətrafımda məndən savayı,
Alan heç vecinə "boşu" hədyanı.

Hərə bir ad qoyub beləliyimə,
Deyib " sirr verməzdir, yovuşmaz" biri.
Qərar verən olub dönən hakimə,
Söyləyib " bivecdir, yoxdur dəyəri".

Tək- tənha qalmağı xoşlayıram çox,
Bu mənim vərdişim, mənim adətim.
Sancılır köksümə etsəm sözü ox,
Özümdən özümə olur " qeybətim".

### "Köhnələrdənəm"

Mən "köhnələrdənəm", sən bəyənməyən,
Uyğun olmayan da görkəmim dəbə.
Ruhum bayağını bil, götürməyən,
Bundan da köklənən ən sərt tələbə.

Dəyişə bilmirəm sifarişlə heç,
Yoxdur şitliklə də zərrə aram, yox.
Şərt olsa şərəfi, ya da nəsə seç,
Birinci min dəfə üstün olar çox.

Haqqı tutmağımdan ucadan uca,
Bəzən tuş gəlirəm qınağlara da .
Olur işim düşür nəfsi çox aca,
Onda çəkilirəm sınaqlara da.

Əlimin qabarı şərəf, şan yerim,
Qaçmıram asana, ya ucuzluğa.
Əkib becərirəm toplayım, dərim,
Hazır, yararlıyam hər cür qulluğa.

Sadiqəm həmişə verdiyim sözə,
Dedim, çəkilmirəm bir addım geri.
Hər kəs də nöqsanı deyirəm üzə,
Gözləyib məqamı, şübhəsiz yeri.

Mən "köhnələrdənəm", səbrim, təmkinim,
Yetir ki, düşünüm, verim düz qərar.
Çaşdırmır hələ ki, gümanım, zənnim,
"Köhnəm"lə "yenim"in ortaqlığı var.

### Ağıllı, vicdanlı

Verməz boşa, hədər bircə anını,
Qurban deyər el- obaya canını,
Tutar uca şərəfini,şanını.
"Yarat" - deyər -"hey özünə" tez tələs,
"Ağıl və vicdanın tanıdığı kəs".

Tək özündən narazılıq, gileyi,
Ədalətə bağlı ruhu, taleyi,
Ətrafına xoşluq arzu, diləyi.
Yox, gətirməz heç dilinə kəlmə nəhs,
"Ağıl və vicdanın tanıdığı kəs".

Bir kimsəyə dəyməz zərrə, zərəri,
Başqasından yığar qəmi, kədəri,
Yaxşılığın ondan miqdar, qədəri
Bax, bilinməz hamı desə yetər, bəs,
"Ağıl və vicdanın tanıdığı kəs".

Xeyirxahlıq təkcə məqsəd, məramı,
Edir, artır an-an şövqü,ilhamı,
Cəhdi, səyi - hey gətirə davamı,
Sanır bundan yaşamır ki, yox əbəs,
"Ağıl və vicdanın tanıdığı kəs".

Canı qoyur baş qoyduğu hər işə,
Səhvlərindən çəkir ağrı, əndişə,
Haqq, muzd unmaz, etdiyini dil-dişə
Salmaz, odur cilovlayan tamah,nəfs
"Ağıl və vicdanın tanıdığı kəs".

### Kənddə nə var, nə yox

İstədim yol alam yenə də kəndə,
Soram o yerlərin hal-əhvalını.
Biləm, yerindəmi o qoca dəndə,
Sərib ətrafına kölgə şalını?

Zirinc kollarının bar-bəhəri var,
Məzluq, yemişandan olaraq payım?
Göndərin mənə cır qərbidən nübar,
Özümü Ələzli hiss edim, sayım.

Dəryaz biçə-biçə otu, əncəri,
Moruq, çiyələyi çıxarır üzə?
Çəkirmi uzaqdan diqqət-nəzəri,
Qatırquyruğular dəyirmi gözə?

Bomboz qayalardan şor yemlikləri,
Sallanıb yenə də kötüyü üzdə?
Yığıb toplamağa istər hünəri,
Əl çatmır, yox adi cığır da, riz də.

Yekə daş altına çələnbir dərə
Gedirmi dəstəylə yenə qız-gəlin?
Var girən türşəngçün cəngəlliklərə,
Kol-kos qanatsa da yanağın, əlin?

Sonğanaq, əvəlik yamacda, yalda,
Bitirmi dad verə fətir, umaca?
Lilpar, boymadərən çətin ədva da
Dönə dərdlilərə dəva əlaca?

Cincilim, şomudan nənələr qutab
Bişirib yağlayır nehrə yağıyla?
Yığıb məgəllikdən göbələk, kabab
Edən var həzz duya ağız dadıyla?

Toplayıb dəstəylə uşaqlar odda
Sütül sünbülləri ütür, qovurur?
Toppuş dənələri əvəzsiz dadda,
Ovucdan-ovuca töküb sovurur?

Kövşən kənarında qanqal, atır qot,
Soyub qabığını çəkən var dişə?
Yayılıb səfalı saysız çiçək, ot,
Düzlərə ağqulaq, bəng, bələgüşə?

***2019***

### Yorulmuşam

Yorulmuşam insanların səmimiyyətdən uzaq havayı boşboğazlığından. Yorulmuşam onların imkanlarına söykənməyən iddaaları, istəklərindən. Yorulmuşam onlardakı bayağılıqları, yalançı kübarlıqları seyr etməkdən. Yorulmuşam sözün, kəlmənin dəyərdən düşməsini izləməkdən, laqeydliyin vüsət almasından, riyanın, şərin, böhtanın qol-qanad açmasını, qalib, məğrur görkəmdə geşt etməsini görməkdən. "Dost", "yaxınlar"ın bir-birinə şablon istək, arzu, diləklərindən, təbriklərindən, minnətdarlıqlarından. Dillərdə sözlərin, kəlmələrin əzilib-büzülməsindən. Hədyanın hikməti üstələməsini müşahidə etməkdən yorulmuşam. Fitnə-fəsad sahiblərinin haqdan, ədalətdən bəhs etməsinə qulaq asmaqdan yorulmuşam. Yorulmuşam, möhkəm yorulmuşam.

### Kölgəsi olmayan

Yaşayıb ömrü boyu onun-bunun kölgəsində. Çevrilib azacıq asılı olduğu adamın quluna. Qorxub öz xırda mövqeyindən, mənafeyindən ötrü. Ləbbeyk deyib o kəslərin hədər, hədyan fikirlərinə, sözlərinə. Bilə-bilə onların hədərhədyanlığını. Dəyişməz həqiqətinə çevirib onların dediklərini, qanun, tabu sanıb. Ətrafındakıların nəzərində kiçildiyinin, alçaldığının fərqinə varmadan. Mütləq hakimi sayıb özündən bircə pillə yuxarıda olanı. Əzilib-büzülüb qarşısında. Yaşayıb beləcə. Buna yaşamaq demək mümkünsə. Cəsarəti çatmayıb düşündüklərini deməyə. O mövqe, vəzifə sahibinin eşitmək istədiklərini tapmağa baş sındırıb günlərlə. Beləsini tapmadıqda susub. Təkidlə fikri soruşulduqda- "Siz bilən məsləhətdir"dən başqa sözü olmayıb. Şükür eləyib hər sakit oturduğu günə. Qəzəbə gəlmədiyi günə. Kölgə sahibinin narazı qalmadığı günə. Dəyişib kölgələr, kölgə sahibləri, osa dəyişməyib-öz fikri, öz mövqeyi, həm də kölgəsi olmayan kəs. Kölgədə olanın kölgəsi olmur axı.

### Ayrılırıq

«Ortaq məxrəcə gəldik. Barmağım televiziya pultunun düymələri üzərində dolaşır. Axtarıram, daxili bir əsəbiliklə axtarıram efir hay-harayları arasında maraqlı bir nəsə. Ümidsizcəsinə dəyişirəm kanalları.

Aha, tapdım, deyəsən, axı. Geyimi, görünüşü, danışığı, ruh oxşayan sakitliyi, səsinin tonu ilə təsəvvürümdə yaşatdığım bir azərbaycanlı qadını aparır bu verilişi. Qonaqları var. Mövzunu elan edir. Qısa, aydın, məntiqli şərhi ilə kökləyir qonaqları söhbətə. Dinləyir səbirlə, diqqətlə. Mən də qoşuluram ona. Birgə dinləyirik, fikirlər söylənilir, düşüncələr bildirilir, çözələnir söhbət. Bizsə dinləyirik sakitcə, sükut çökür ani. Düşündüyüm, vermək istədiyim sualı verir qonaqlara. Yenə dinləyirik ikimiz də. Təkrarlanır bu hal bir neçə dəfə. Yenə sükut, bu dəfə qonaqlara qoşulmuşam. Onu dinləmək istəyirik hamımız. Danışır, aydın, səlis, məntiqli, sənin tonunu qaldırmadan, sakit, təmkinlə nəticələr çıxarır. Razılaşırıq hamımız onunla. Ortaq məxrəcə gəlmişik axı birlikdə. O, mən, qonaqlar. Jurnalist, mən, qonaqlar... Sağolaşır. Ayrılırıq. Səmimi dostlar kimi».

